


# *Nizami Gəncəvinin həyat və yaradıcılığının əsas tarixləri*

**1141 -** Cəmaləddin İlyas ibn Yusif Nizami Gəncəvi qədim Gəncə şəhərində anadan olmuşdur.

**1169 -** Dərbənd hökmdarı Nizamini öz sarayına cəlb etmək üçün ona Afaq adlı bir kəniz göndərmişdir. Şair Afaqı kəniz kimi qəbul etməmiş və onunla evlənmişdir.

**1174 -** Afaqdan Məhəmməd adlı bir oğlu olmuşdur.

**1176-1178 -** İlk böyük əsəri olan "Sirlər xəzinəsi"ni yazmışdır.

**1179 -** Şairin həyat yoldaşı Afaq vəfat etmişdir və o, ikinci dəfə Gövhər adlı bir qadınla evlənmişdir.

**1180 -** Yaxın Şərqdə ilk romantik poema sayılan "Xosrov və Şirin" poemasını bitirib, Cahan Pəhləvana hədiyyə göndərmişdir.

**1186 -** Cahan Pəhləvanın ölümündən sonra onun yerinə keçmiş Qızıl Arslan Nizami ilə görüşmək üçün Gəncəyə gəlmişdir.

**1188 -** Üçüncü böyük əsəri "Leyli və Məcnun" poemasını yazmışdır.

**1193-1197 -** Ağsunqar Körpə Arslana ithaf etdiyi "Yeddi gözəl" poemasını yazmışdır.

**1200 -** Yaradıcılığının ən uca zirvəsi sayılan "İsgəndərnamə"ni yazıb bitirmişdır.

**1209 -** Nizami Gəncəvi Qədim Gəncə şəhərində vəfat etmışdir.

- XIII-XIV əsrlərdə Gəncə şəhərinin yaxınlığında – Əhmədli kəndində dəfn olunduğu yerdə ağ əhəng daşından qəbirüstü türbəsi tikilmişdir.

**1891-** XIX əsrin 40-cı illərində Gəncə şəhərində türbənin ciddi təmirə ehtiyacı olduğuna və şairin anadan olmasının 750-ci ildönümü münasibətilə həmin türbənin yerində Nizami Gəncəvinin məqbərəsi ucaldılmışdır.

**1896 -** M.Tevinkovun "Qədim Rusiya ilə Xəzəryanı dövlətlərin münasibətlərinin Nizaminin "İsgəndərnamə" poemasında bir mənbə kimi xarakteristikası" adlı kitabı Tiflisdə rus dilində çap

**1907 -** "Nizaminin övladına nəsihəti" M.Hadinin tərcüməsində "Füyuzat" jurnalında nəşr edilmişdir.

**1909 -** İlk dəfə Nizami haqqında Mirzə Məhəmməd Axundzadə "Şeyx Nizami" adlı kitabını Gəncədə çap etdirmişdir.

**1932 -** Gəncə şəhərində məqbərəsi üzərinə müvəqqəti abidə qoyulmuşdur.

**1938 -** İyul ayının 25-də Azərbaycan KP MK "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyinin bayram edilməsi haqqında" qərar qəbul etmişdir.

**1939 -** Azərbaycan SSR XKS-i tərəfindən "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olması gününün 800 illiyinə həsr edilən daimi sərgi (ev-muzeyi) təşkil etmək haqqında" 1939-cu il 1 noyabr tarixli 4972 №-li Qərar qəbul edilmişdir.

- "Şeirlər" kitabı nəşr edilmişdir.

**1940 -** Moskvada Nizamiyə həsr edilmiş elmi sessiya və iclas keçirilmişdir.
- Nizami əsərlərinin tərcüməsi üzrə Bakıda ümumittifaq müşavirə keçirilmişdir.
- Azərbaycan XKS-nin qərarına görə Nizaminin epoxası, həyatı və yaradıcılığı haqqında müsabiqə elan edilmişdir.

**1941 -** 29 aprel Azərbaycan KP MK-nın büro iclasının qərarı ilə Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinin keçirilməsinin rəsmi tarixi (1941-ci il 16 oktyabr) müəyyənləşdirilmişdir.
- Anadan olmasının 800 illik yubileyi müharibə şəraitində Leninqradda (indiki Sankt-Peterburq) Dövlət Ermitajında qeyd edilmişdir
- EA Azf. Nizami adına Dil və Ədəbiyyat İnstitutunun hazırladığı "Nizami lirikası" kitabı çapdan çıxmışdır.

**1945 -** Bakıda ev-muzeyinin açılışı olmuş, sonralar Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi kimi fəaliyyət göstərmişdir.

**1946 -** Gəncədə heykəltəraş F.H.Əbdürrəhmanovun "Nizami Gəncəvi" abidəsi ucaldılmışdır.

**1940 - 1947 -** Gəncə şəhərində dağılmış qədim məqbərənin yerində daş məqbərə ucaldılmışdır;
- SSRİ Nazirlər Sovetinin 674 №-li 24 mart tarixli Qərarına əsasən memar S.Ə.Dadaşov və M.Ə.Hüseynovun, heykəltəraş F.Əbdürrəhmanovun layihələri üzrə Azərbaycan şairi Nizami Gəncəviyə Bakı şəhərində abidə qoyulmuşdur;
- Anadan olmasının 800 illik yubileyi dövlət səviyyəsində təntənəli surətdə qeyd edilmişdir;

- Moskva, Sankt-Peterburq, Gürcüstan, Özbəkistan, Ermənistan, Türkmənistan, Litva, Latviya və Dağıstanda anadan olmasının 800 illik yubileyi dövlət səviyyəsində təntənəli surətdə qeyd edilmişdir;

- Anadan olmasının 800 illik yubileyi münasibətilə Moskvada SSRİ Elmlər Akademiyası və Sovet Yazıçıları İttifaqı təntənəli iclas keçirmişdir.

**1967 -** Noyabrın 6-da Bakı Metropoliteninin "Nizami" stansiyası istifadəyə verilmişdir.

**1969** AMEA Ədəbiyyat İnstitutu Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu adı altında fəaliyyət göstərir.

**1979 -** Azərbaycan KP MK "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir;

- Azərbaycanda ənənəvi Nizami Poeziya Günləri keçirilməyə başlanmışdır.

**1980 -** Bakı şəhərindəki rayonlardan birinə mütəfəkkirin adı verilmişdir.

**1981 -** Azərbaycan KP MK anadan olmasının 840 illik yubileyinin qeyd edilməsi barədə qərar qəbul etmişdir;

- Azərbaycan SSR Nazirlər Soveti "Nizami adına medal təsis edilməsi haqqında" qərar qəbul etmişdir;

- Nizami Gəncəviyə həsr olunmuş SSRİ-nin poçt markası buraxılmışdır;

- Anadan olmasının 840 illik yubileyi Moskvanın İttifaqlar Evinin Sütunlu Salonunda təntənəli surətdə qeyd edilmişdir;

- Anadan olmasının 840 illik yubileyi münasibətilə Bakıda V.İ.Lenin adına Sarayda təntənəli yığıncaq keçirilmişdir.

**1990 -** Azərbaycan KP MK "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi haqqında" qərar qəbul etmişdir;

- Bakıda Nizami Gəncəvinin adına Beynəlxalq Elm və Mədəniyyət Mərkəzi açılmışdır.

**1991 -** SSRİ Mədəniyyət naziri N.N.Qubenko "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi qarşısında yubiley tədbirləri keçirilməsi haqqında" əmr imzalamışdır;

- Moskvada Nizami Gəncəvinin abidəsinin açılışı olmuşdur;

- 850 illik yubileyi münasibəti ilə SSRİ-nin 1 rublluq yubiley monetası buraxılmışdır;

- 850 illik yubileyi Rusiyada və Belarusun paytaxtı Minsk şəhərində qeyd edilmişdir;

- Təbriz Universitetində 850 illik yubileyə həsr olunmuş Beynəlxalq elmi konfrans keçirilmişdir;
- 850 illik yubileyi münasibətilə İraqda Beynəlxalq konqres keçirilmişdir;

**1992 -** Türkiyənin paytaxtında “Azərbaycan şairi Gəncəli Nizami simpoziumu” keçirilmişdir.

**1993 -** Nizami Gəncəvinin portreti həkk olunmuş 500 əskinaz tədavülə buraxılmışdır.

**1996 -** Lüksemburqda Rusiya Federasiyası Səfirliyinin Nizami Gəncəvinin abidəsi ucaldılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev açılışda çıxış etmişdir.

**1998 -** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev “Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin qoyulması haqqında” Sərəncam imzalamışdır.

**2002 -** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində ucaldılan abidəsinin açılışında iştirak etmişdir.

**2004 -** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində iştirak etmişdir;

- Külliyyatı ilk dəfə latın qrafikası ilə nəşr edilmişdir.

**2005 -** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moldovanın Kişinyov şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində iştirak etmişdir.

**2006 -** Gəncə şəhərindəki məqbərəsi və ətrafındakı park tamamilə yenidən qurulmusdur.

**2007 -** Strasburqdakı “Azərbaycan evi” və Universitetin Türkologiya departamenti “Nizami Gəncəvi və dünya mədəniyyəti” mövzusunda tədbir təşkil etmişdir.

**2008 -** Azərbaycanın dahi şairi, mütəfəkkir Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş 100 manat dəyərində qızıl xatirə sikkələri tədavülə buraxılmışdır.

**2009 -** Dahi şairin vəfatının 800 illiyi qeyd olunmuşdur.

**2010 -** YUNESKO-nun Mərkəzi Asiya Araşdırmaları İnstitutu Səmərqənddə “Nizami və Nəvai: tarixi və mədəni əlaqələr” mövzusunda Beynəlxalq elmi konfrans keçirmişdir.

**2011 -** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.

**2012 -** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Goranboyda Nizami Gəncəvi adına parkın açılışında iştirak etmişdir;
- İtaliyanın paytaxtı Roma şəhərində Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycanın İtaliyadakı səfirliyinin iştirakı ilə Roma şəhərindəki məşhur "Villa Borghese" parkında Nizami Gəncəvinin abidəsinin açılışı olmuşdur. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişdir;
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncədəki "Xəmsə" abidə kompleksində Nizami Gəncəvinin heykəlinin açılışında iştirak etmişdir;
- Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il sərəncamına əsasən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirlərinin keçirilməsi çərçivəsində 30 sentyabr şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilmişdir.

**2013** - Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzi Oksford Universiteti nəzdində yaradılmışdır.

**2021** - Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan olunmuşdur.